## Regional inkişafda özəl sektorun rolu güclənir

2004-cğ ildən etibarən regionların inkişafına 90 milyard manat investisiya qoyulub

Hər bir dövlətin davamlı tərəqqisinin mühüm şərtlərindən biri onun regionlarının tarazlı və davamlı inkişafının təmin edilməsidir. Son illər Azərbaycanın həyata keçirdiyi iqtisadi siyasətdə də regionların inkişafı mühüm yer tutur. Respublikanın hər bir bölgəsinin proporsional inkişafı milli tərəqqinin vacib amili kimi nəzərdən keçirilir.

***Regional inkişafa təkan***

Prezident İlham Əliyevin bir neçə gün əvvəl İmişli, Beyləqan və Saatlı rayonlarına səfəri regionların inkişafının hökumət üçün prioritet məsələlərdən biri olduğunu göstərir. Bu da təsadüfi deyildir - paytaxt və digər böyük şəhərlərin, iri yaşayış massivlərinin kənd, rayon və qəsəbələrə nisbətən daha sürətlə inkişaf etməsinə təkcə postsosialist dövlətlərində deyil, ümumilikdə bütün inkişaf etmiş ölkələrdə geniş rast gəlinir. Urbanizasiya prosesi, yəni şəhərlərə yüksək axın hazırda bütün dövlətləri qayğılandıran və ciddi fəsadlarla müşayiət olunan qlobal problemdir.

Ümumilikdə, respublikamızın son illər bölgələrin inkişafı sahəsində nəzərəçarpacaq uğurlara imza atması hökumətin bu sahədə yürütdüyü siyasətin səmərəliliyini təsdiqləyir. 11 fevral 2004-cü il tarixli «Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı (2004-2008-ci illər) Dövlət Proqramı» və 14 aprel 2009-cu il tarixli «Azərbaycan Respublikası regionlarının 2009-2013-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı» ötən illərdə regionların qeyri-proporsional inkişafının qarşısını almağa xidmət edən mükəmməl konsepsiya kimi özünü doğruldur. Hər iki proqram çərçivəsində regionların təbii resurslarından və bölgələrdə cəmləşmiş əmək ehtiyatlarından səmərəli istifadə, yeni iş yerlərinin açılması, sosial problemlərin həlli, sahibkarlığın inkişafı, mövcud infrastrukturun yenidən qurulması, enerji təminatı problemlərinin həlli yerlərdə istehsal potensialını gücləndirdiyi kimi, əyalət sakinlərinin Bakıya, həmçinin digər regional mərkəzlərə doğru axınını da səngidib.

***Bölgələrə yatırılan***
***investisiyaların həcmi artır***

Regionların inkişafı ilə bağlı qəbul edilən dövlət proqramlarının icrası nəticəsində 2012-ci ilin 9 ayında regionlarda qeyri-neft sektoru üzrə vergi daxilolmaları 14% artıb. Müqayisə üçün bildirək ki, «Azərbaycan Respublikası regionlarının 2009-2013-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı»nın icrasına başlanılana qədər icmal büdcənin tərkibində vergi daxilolmalarında bu rəqəm cəmi 5,5% idi. Şübhəsiz, qeyri-neft sektorunda müşahidə edilən artım uğurlu təməlini həm də regionların sosial-iqtisadi inkişafı sahəsində həyata keçirilən tədbirlərdən götürür.

Azərbaycan hökuməti 2004-2012-ci illər ərzində regionlarda kənd təsərrüfatının, qeyri-neft sektorunun inkişafını stimullaşdırmaqla yeni istehsal və emal müəssisələrinin yaradılmasını, xidmət və digər infrastruktur obyektlərinin, turizmin inkişafını və bütün bunların fonunda yeni iş yerlərinin açılmasını təmin edib. Prezident İlham Əliyev İmişli, Beyləqan və Saatlı rayonlarına səfəri çərçivəsində sahibkarlarla görüşündə regional inkişaf proqramlarının rolunu xüsusi qeyd etmişdir: «Regionların sosial-iqtisadi inkişafı Dövlət Proqramı, hesab edirəm ki, son illər ərzində ölkəmizi hərtərəfli inkişaf etdirən əsas alət olmuşdur. Bu proqram qəbul olunanda hədəflər də müəyyən edilmişdi və hədəflər müxtəlif istiqamətləri əhatə edirdi. Ancaq bir sözlə demək mümkündür ki, əsas hədəf ölkə iqtisadiyyatını şaxələndirmək idi və neft-qaz amilindən asılılığı azaltmaq məqsədi daşıyırdı. Hesab edirəm ki, biz bu hədəflərə çatmışıq, bütün bölgələrdə quruculuq, abadlıq, infra-struktur işləri aparılır».

***Sahibkarlıq subyektlərinin***
***sayı çoxalır***

İqtisadi İnkişaf Nazirliyindən verilən məlumata əsasən, regional inkişaf proqramları çərçivəsində 2004-cü ildən indiyədək regionlarda çalışan sahibkarlara 910 milyon manatdan çox güzəştli kredit verilib, sosial infrastruktur layihələrinin icrasına isə 90 milyard dollar vəsait qoyulub. Təkcə 2012-ci ilin 9 ayının yekunlarına görə, bu məbləğ 16 milyard dollar təşkil edib. Hesabat dövründə regionlarda 125 məktəb, 8 uşaq bağçası, 14 səhiyyə, 13 mədəniyyət, 16 gənclər və idman obyektinin tikintisi başa çatıb. 24 məktəb, 22 uşaq bağçası, 10-dan çox mədəniyyət, səhiyyə,

gənclər və idman obyektində əsaslı təmir işləri yekunlaşıb. Hazırda 270-dən çox sosial müəssisənin tikintisi davam etdirilir.

Bundan başqa, regionların tarazlı inkişafı, əlverişli biznes və investisiya mühitinin formalaşdırılması nəticəsində 2004-cü ildən bəri 1 milyon 100 min yeni iş yeri açılıb, əhalinin rifahı yaxşılaşıb, qeyri-neft sektoru 2,2 dəfə artıb. 2012-ci ilin 9 ayında isə qeyri-neft sektorunda artım 10,3% təşkil edib.

«Regionların sosial-iqtisadi inkişafı Dövlət Proqramı» çərçivəsində həyata keçirilən tədbirlər ölkədə sahibkarlıq subyektlərinin artımına da pozitiv təsirini göstərir. 2012-ci ilin yanvar-oktyabr aylarında 60668 vergi ödəyicisinin dövlət qeydiyyatına alınması ölkədə həm də biznesə başlama prosedurlarının sadələşdirilməsinin nəticəsidir. Qeyd olunan müddətdə Vergilər Nazirliyində qeydiyyatdan keçmiş vergi ödəyicilərinin 3944-ü kommersiya-hüquqi şəxs, 56388-i fiziki şəxsdir. Həmin vergi ödəyicilərinin 37892-si elektron qaydada qeydiyyatdan keçib. Elektron qaydada qeydə alınan vergi ödəyicilərinin 475-i kommersiya-hüquqi şəxs, 37417-si isə fiziki şəxsdir.

Regionlarda sahibkarlıq subyektləri üçün yaradılmış münbit şərait nüfuzlu beynəlxalq təşkilatların hesabatlarında da əksini tapır. Dünya Bankı və Beynəlxalq Maliyyə Korporasiyası tərəfindən hazırlanan və biznes mühitinin əlverişliliyi üzrə qiymətləndirməni əks etdirən «Doing Business-2013» hesabatına əsasən, respublikamız 185 ölkə arasında 67-ci yerdə qərarlaşıb. Ötənilki hesabatda Azərbaycan, bir sıra kriteriyalarla yanaşı, «Vergilərin ödənişi» göstəricisi üzrə də mövqeyini köklü surətdə yaxşılaşdıraraq, uğurlu islahatlar aparan ilk beş ölkə sırasına daxil edilib.

Samir MUSTAFAYEV